# Azərbaycan müqəddəs bir məkan, Xaçmaz isə onun "Şimal qapısı"dır




***- Hörmətli Şəmsəddin müəllim, Siz uzun illər ulu öndər Heydər Əliyev və Prezident İlham Əliyevin tövsiyəsi ilə ölkəmizin inkişafına xidmət edən müxtəlif vəzifələrdə çalışmısınız. Bu illər ərzində biz Sizin çalışdığınız hər bir sahədə çox dəyərli izlər qoyduğunuzun şahidi olmuşuq və artıq 15 ilə yaxındır ki, Xaçmaz İcra Hakimiyyətinin başçısısınız. Bu müddətdə Xaçmazın inkişafı və həyata keçirilən tədbirlər barədə nə deyə bilərsiniz?***

- Bu gün Azərbaycan, demək olar ki, hər bir sahədə ciddi uğurlara imza atmışdır. Ölkənin dinamik inkişafı məqsədilə qoyulan investisiyaların miqdarı artmış, hər bir sahədə əsaslı dəyişikliklər özünü göstərmişdir. Heydər Əliyevin bizlərə miras qoyub getdiyi dövlətçilik modelini XXI əsrin çağırışları ilə zənginləşdirən İlham Əliyev cənabları praqmatik düşüncəsi, uzaqgörən siyasəti və özünəməxsus siyasi manevrləri ilə qısa zaman kəsiyində Azərbaycanı dünyanın nüfuzlu ölkələri sırasına qaldırdı. Bütün bu uğurların işığında isə biz də yaşanan tərəqqiyə öz töhfələrimizi verməyə çalışırıq. Ümumiyyətlə isə, ictimaiyyət görülən işlər, atılan addımlarla jurnalistlərin, kütləvi informasiya vasitələrinin şəxsində tanış olur. Ona görə də mən hər zaman jurnalistlərlə səmimi münasibətlər qurmağa, onlarla birgə fəaliyyətə mühüm önəm vermişəm. Görülən nəcib və xeyirxah işləri işıqlandırdığına görə isə xüsusilə "İqtisadiyyat" qəzetinə dərin təşəkkürlərimi bildirirəm.

Mən hər zaman getdiyim yerlərdə, diyarlarda xoşuma gələn, zövqümü oxşayan yenilikləri Xaçmaza gətirməyə çalışmışam. Burada söhbət təkcə zövqdən, qabiliyyətdən, bacarıqdan və yaxud ustalıqdan getmir. Əsas odur ki, ürəkdə təpər olsun, gördüyün işə sevgi və sayqı ilə yanaşasan. Mənim üçün Azərbaycan müqəddəs bir məkandır, Xaçmaz isə onun "Şimal qapısı"dır. Vətən sərhəddən başlayır. Sərhəddə yerləşən şəhər gərək abad, yaraşıqlı və cəlbedici görünsün. Axı, ilk təəssürat sərhəddən yaranır. «Çənlibel» də, Heydər Əliyev prospekti də, Şəxsiyyətlər Muzeyi də, parklar da, xiyabanlar da, istirahət guşələri də bu istəkdən yaranıb. Azərbaycan xalqı çox yaradıcı və zövqlü xalqdır, dünyada çox az xalqlara mənsub olan zəngin mənəvi dəyərlərin daşıyıcısıdır. Xaçmazda çox işlər görülüb və bundan sonra da görüləcək. Xaçmaza ayaq basan hər kəsin üzündəki təbəssümü, razılıq ifadəsini görəndə elə bil dünyanı mənə bağışlayırlar. Rusiya Federasiyası ilə sərhəddə yerləşdiyimizə görə ən çox qonağımız Dağıstan Respublikasından olur. Bir dəfə gələn, ikinci dəfə də gəlmək istəyir. Bilirsiniz niyə? Buradakı qonaqpərvərlik, gülərüzlülük, isti münasibət və doğmalıq hamıya xoş gəlir. Yüksək tolerantlıq, milli və dini dözümlülük, xalqlar və etnik qruplar arasında yaşanan dostluq və mehribanlıq əlaqələri Azərbaycan xalqının üstün dəyərləridir.

***- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dövlət başçısı kimi fəaliyyətinin ilk günlərindən regionların inkişafına xüsusi diqqətlə yanaşır, konkret dövlət proqramlarının həyata keçirilməsini vacib sayır. Xaçmazda da bu proqramlar çərçivəsində görülən işlər barədə məlumat verməyinizi xahiş edərdik.***

- Cənab Prezident İlham Əliyevin Azərbaycan xalqı qarşısında tarixi xidmətlərindən biri də ondan ibarətdir ki, o, ölkəmizin inkişafı və xalqımızın həyat səviyyəsinin yüksəldilməsində mühüm rol oynamış, bu məsələlərə hər zaman xüsusi diqqət ayırmışdır. İlk olaraq onu demək lazımdır ki, hər üç Dövlət Proqramının - "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)", "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı", "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrası ölkəmizin hər yerində olduğu kimi, Xaçmaz rayonunda da uğurla icra olunmuşdur. Bu işlər indi də davam etdirilir. Həmin proqramlar çərçivəsində rayonumuzda sənaye və kənd təsərrüfatı istehsalının genişləndirilməsi, yol təsərrüfatı, təbii qaz, elektrik enerjisi, su təminatı, təhsil, səhiyyə, mədəniyyət və idman obyektlərinin tikintisi və digər infrastruktur layihələrinin reallaşdırılması istiqamətində kifayət qədər böyük həcmli işlər görülmüşdür. Proqramların qəbulundan keçən müddət ərzində həyata keçirilmiş tədbirlər nəticəsində 10000-dən çox yeni iş yeri açılmışdır ki, bunun da 60%-dən çoxu daimi iş yerləridir. Görülən işlər möhtərəm Prezidentimiz İlham Əliyevin Azərbaycanın tərəqqisi və inkişafı naminə fədakar əməyi, Xaçmaz rayonuna xüsusi diqqət və qayğısı sayəsində mümkün olmüşdur.

Bu il cənab Prezident İlham Əliyevin Xaçmaza səfəri çərçivəsində Çarxı-Qalağan-Hacılar-Xanlıqoba-Sayad-Məmmədxanlı avtomobil yolunun yenidənqurma və bərpadan sonra, həmçinin "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin Xaçmaz filialının açılışı olmuş, Xaçmaz şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin istismara verilməsi mərasimi keçirilmişdir. Eyni zamanda, Azərsu Açıq Səhmdar Cəmiyyətinin Xaçmaz idarəsinin inzibati binasının və Xaçmaz-Xudat avtomobil yolunun 24 kilometrlik hissəsinin yenidənqurma və bərpadan sonra açılışı olmuşdur.

Xaçmazda ilk dəfə olaraq «Biznes inkubator» yaradılmışdır. Cənab Prezident İlham Əliyevin dövlət orqanları qarşısına qoyduğu əsas vəzifələrdən biri vətəndaşların müraciətlərinə diqqətlə baxılması və qaldırılan problemlərlə bağlı operativ tədbirlərin görülməsidir. Xaçmaza bütün səfərləri zamanı cənab prezident bunu dönə-dönə vurğulamışdır. Tam əminliklə deyə bilərəm ki, ölkə başçısının hər bir tapşırığını layiqincə yerinə yetirməyə çalışmışıq və bundan sonra da bu yolda işimizi davam etdirəcəyik.

***- Xaçmaz respublikamızda bağçılıq, meyvəçilik və tərəvəzçiliyin, ümumiyyətlə isə, kənd təsərrüfatının inkişaf etdiyi rayonlardandır. Son illər rayonda bu sahədə görülən işlər əsas olaraq nələrdən ibarət olmuşdur?***

-Xaçmaz rayonunun iqtisadiyyatının əsasını kənd təsərrüfatı təşkil edir. Bir neçə fakta müraciət edək. 2017-ci ilin məhsulu üçün bütün təsərrüfat qurumları daxil olmaqla 23,797 ha sahədə taxıl əkilmişdir ki, bunun da 17905 hektarı buğda və 5892 hektarı arpa məhsuludur. Taxıl sahələrindən orta məhsuldarlıq 32,6 sentner olmaqla cəmi 75,3 min ton taxıl istehsal olunmuşdur ki, onun 59,6 min tonu buğda, 15,7 min tonu arpa məhsuludur. Buğdanın məhsuldarlığı hər hektardan 35, arpanınkı isə 25,9 sentner olmuşdur. İl ərzində 20474 ha meyvə bağlarından 98,9 min ton müxtəlif meyvə məhsulu istehsal edilmişdir. Rayonda mövcud 300 ha üzüm bağlarından 4 min ton məhsul istehsal olunmuşdur. 3553 ha sahədə tərəvəz əkilmiş, 89,3 min ton müxtəlif tərəvəz məhsulu istehsal edilmişdir. Təsərrüfatlarda 57,1 min baş iribuynuzlu mal-qara, 74,6 min baş xırdabuynuzlu heyvan, 322,6 min baş ev quşları vardır. İl ərzində 14,6 min ton ət, 60,5 min ton süd, 21,7 milyon ədəd yumurta, 178,2 ton yun istehsal edilmişdir. Cari ilin məhsulu üçün rayonda 23715 ha taxıl bitkisi əkilmişdir ki, bunlar da əvvəlki illərə nisbətən çoxdur. Bakı və Sumqayıt şəhərlərində təşkil olunan kənd təsərrüfatı məhsullarının satış yarmarkalarına il ərzində 1360 ton meyvə və tərəvəz məhsulu çıxarılmışdır. 01 yanvar 2018-ci il vəziyyətinə İqtisadi İnkişaf Nazliyi Sahibkarlığa Kömək Milli Fondunun vəsaiti hesabına rayonun bank-kredit təşkilaları tərəfindən 89 sahibkara kredit verilmişdir. Bu da öz növbəsində kəndlilərdə kənd təsərrüfatı istehsalı ilə məşğul olmağa stimul, rayon əhalisinin məşğulluq siyasətində müsbət dinamika yaradır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ölkəyə daha çox valyuta gətirən məhsulların əkilməsinə üstünlük verilməsi ilə bağlı göstərişlərinə əsasən bu istiqamətdə bir sıra işlər həyata keçirilir. Bu baxımdan respublikamızda fındıq bağlarının artırılması üçün əməli tədbirlər görülür və rayonumuz fındıq bağlarının artırılması nəzərdə tutulan 12 rayondan biri kimi qəbul olunmuşdur. Ötən il 1540 ha sahədə yeni fındıq bağları salınmış və mövcud fındıq bağlarının sahəsi 7803 hektara çatmışdır. 2017-ci ildə bar verən 3921 ha bağdan 5811 ton (orta məhsuldarlıq 14,8 sentner) fındıq məhsulu istehsal edilmişdir. Fındıq əkilməsinə dövlət tərəfindən göstərilən diqqət və qayğı rayon əhalisinin bu sahəyə marağını artırıb və əhalinin gəlirlərinin artmasına şərait yaradıb. Əlbəttə, aqrar sektorda sürətli və keyfiyyətli inkişaf imkanalrı böyükdür. Yalama aqrar parkının tam gücü ilə işləməsi rayon iqtisadiyyatına əhəmiyyətli töhfə olacaq.

***- "Əfsanələr şəhəri"ni əfsanəyə çevirən gözəlliklərdən söz açardınız.***



- Xaçmaz bir daha vurğulamaq istərdim ki, Azərbaycanın "Şimal qapısı" hesab olunur. Azərbaycanın hər bir guşəsinin özünəməxsus gözəlliyi var, o cümlədən Xaçmaz şəhərinin. Bu gün Xaçmaz şəhərinin siması dəyişir, çox geniş quruculuq-abadlıq işləri aparılır, 11 böyük həcmli - diametri 1,4 metr olan saatlar Bakı prospektində, 7 saat şəhərin digər yerlərində quraşdırılmışdır, şəhərdə açıq havada şəxsiyyətlər müzeyi yaradılmış, ümumilikdə, 11 muzey, o cümlədən "Əziz Əliyev" və "Azərbaycan-Dağıstan Dostluq" muzeyləri tikilərək istifadəyə verilmişdir. 1050 kvadratmetr sahədə rəsm qalereyası, Azərbaycanın görkəmli dahi şəxsiyyətlərinin 112 abidəsi qoyulmuş, Tarix Diyarşünaslıq Muzeyi tikilmiş, at üstündə 6 abidə qoyulmuşdur. Şəhərdə 6 yerdə piyada keçidi körpüsü, akademik Zərifə xanım Əliyevanın adını daşıyan məktəb-liseyin qarşısında müasir üslubda yeraltı piyada keçidi tikilmişdir. "Çənlibel" istirahət parkında cari təmir və yenidənqurma işləri aparılmış, 60-dan yuxarı fəvvarə tikilərək, əhalinin istirahəti üçün istifadəyə verilmişdir. Respublika Mədəniyyət və Turizm Nazirliyi tərəfindən Xaçmaz şəhərinin 2013-cü ildə «Əfsanələr şəhəri» elan edilməsini də məhz şəhərimizin inkişafı, mədəni irsimizin qorunması, çoxsaylı mədədniyyət və istirahət obyektlərinin istifadəyə verilməsi, görülən işlərə verilən yüksək dəyər kimi qiymətləndirmək olar.

***- Şəmsəddin müəllim, səmimi qeyd edim ki, həqiqətən, Xaçmaz hazırda öz gözəlliyi ilə insanı valeh edir. Şəhərin daha da gözəlləşməsində sizin xüsusi qayğı və diqqətiniz, doğrudan da, bariz şəkildə özünü göstərir. Hələ Fəvvarələr bağı… Şəhərə şox qeyri-adi və əsrarəngiz görünüş bəxş edir…***

- Nə deyə bilərəm?! (gülümsəyir) Biz hər bir fəvvarənin tikintisinə xüsusi diqqətlə yanaşmışıq. Dünyanın bir çox ölkələrində gördüklərimizdən faydalanmışıq. Necə deyərlər, - dünya gör-götür dünyasıdır. Biz də gözümüzü oxşayan gözəllikləri götürməyə, uğurla tətbiq etməyə çalışmışıq. Eləcə də Fəvvarələr bağı... Biz onu M.Rəsulzadə küçəsi boyu daha da genişləndirmişik. Burada yeni yaşıllıqlar, ağac və dekorativ güllər əkilmiş, oturacaqlar qoyulmuşdur. Bildiyiniz kimi, Azərbaycanda çay süfrəsi son dərəcə maraq doğurur. Son illərdə Azərbaycanın bu sahədə də nüfuzunu bərpa etməklə bağlı böyük işlər görülür, yeni çay plantasiyları salınır, xarici ölkələrə çay ixracı artırılır. Sizlər də yaxşı bilirsiniz ki, çay və çay süfrəsi mədəniyyəti xalqımızın qədim milli adət və ənənələrinin bir növü olmaqla yanaşı, qonaqpərvərliyimizin bariz nümünəsidir. Bu adət və ənənələrin yaşadılması üçün Xaçmaz şəhərinin Bakı prospektində "Seyrəngah" parkında respublikada ən hündür sayılan - 12 metr hündürlüyündə "Samovar" inşa edilmişdir. Bununla, həmçinin qonşu ölkələrə göstərmək istərdik ki, çay, çay dəstgahı, çay süfrəsi mədəniyyəti tarixən yüksək olmuşdur və bu ənənə bu gün də qorunub saxlanılır. Mən çox sevinirəm ki, həm şəhər sakinləri, həm də qonaqlarımız çay süfrəsindən geniş istifadə edirlər.

Şəhərə gözəllik verən həm də binaların xarici görünüşüdür. Bu işdə də biz dünya ölkələrinin təcrübəsindən faydalanmağa çalışırıq. Bununla əlaqədar olaraq N.Nərimanov küçəsində, Heydər Əliyev parkının yaxınlığında olan 4 beşmərtəbəli binanın və digər tikililərin fasad hissəsi milli arxitektura üslubunda üzlənmiş, Xaçmaz şəhərində ulu öndər Heydər Əliyevin adını daşıyan prospektin girişində "Tower" körpüsünə oxşar giriş qapısı inşa edilmişdir. Mən bir inşaatçı-memar kimi, Londonda olan "Tower" körpüsünü memarlıq abidəsi kimi çox bəyənirəm və istədim ki, ona bənzər bir tikili Xaçmaz şəhərində də olsun. Eyni zamanda, lampa haqqında da məlumat verim. Bildiyiniz kimi, 1990-1993-cü illərdə Naxçıvan ağır blokada şəraitində yaşayırdı və bu şəraitdə ulu öndər Heydər Əliyev cənabları öz iş otağında hər gün gecə saat 3-4-ədək neft lampası işığında işləyirdi, bu illərin xatirəsini yaddaşlarda saxlamaq üçün və Azərbaycanımızın alovlar diyarı olmasını, neft lampasının bizim xalqın dərin tarixi köklərinə bir işarə olduğunu nəzərə alaraq, Xaçmaz şəhərinin 5 yerində hündürlüyü 12-14 metr olan lampalar quraşdırılmışdır. Bütün bunlar isə Xaçmazın gecələrinin çox gözəl və möhtəşəm görünməsinə öz töhfəsini verir. Bu gözəlliklərin işığında isə biz həm də elektrik enerjisindən çox səmərəli istifadə edir, regionun hər bir yerində insanların, sözün həqiqi mənasında, işıqlı günlər yaşamasına çalışırıq. Bu məqsədlə Xaçmaz istilik elektrik stansiyası Azərbaycanın şimal bölgəsinin elektrik enerjisi ilə təchizatında vacib rol oynayır. Keçən illər ərzində "Azərişıq" ASC tərəfindən rayonun yüksək gərginlikli və paylayıcı elektrik şəbəkəsinin yenidən qurulması istiqamətində bir sıra əhəmiyyətli işlər görülmüşdür. Rayonun müxtəlif ərazilərində 188 ədəd yüksək gərginlikli və 1981 ədəd paylayıcı şəbəkə dayaqları dəyişmiş, 155 km SİP kabel çəkilmiş, 19 ədəd trasformator yenisi ilə əvəz edilmişdir.

***- Rayonda son illərdə görülən işlər, infrastruktur tədbirləri haqqında nə deyə bilərsiniz?***

-2017-ci ildə rayona müxtəlif sahələr üzrə 34 milyon manat özəl investisiya qoyulmuşdur ki, bunun 24,2 milyon manatı kənd təsərrüfatı məhsullarının istehsalı və emalı, 7,4 milyon manatı ticarət sahələrinin payına düşür. Əsas kapitala yönəlmiş investisiyaların həcmi 107 milyon manat və ya 12% çox olmuşdur. Əlbəttə, bu sahədə həllini gözləyən bir sıra çətinliklər mövcuddur. Bunlardan ən əsası rayonun infrastrukturunun müasir tələblərə tam uyğun olmamasıdır, digəri kommunikasiya xətlərinin hələ rayonun bəzi yerlərinə çəkilməməsidir. Bu məsələlərlə bağlı cənab prezidentimizin göstərişlərinə əsasən yeni yollar çəkilir, həmçinin Xaçmaz şəhərinin su və kanalizasiya xətləri yenidən qurulur.

Bildiyiniz kimi, rayonunun çox böyük turizm potensialı var. Lakin regionun inkişafına ən böyük maneə burada təbii qazın olmaması, yol infrastrukturunun pis vəziyyətdə olması ilə bağlı idi. Möhtərəm prezidentimizin göstərişinə əsasən Xaçmaz-Xudat avtomobil yolunun tam yenidən qurulması işləri aparılmış və istifadəyə verilmişdir. Bundan əlavə, rayonun turizm zonasında olan 19 kəndin (Nabran, Turist, Dalğalı, Samur çay, Şimali, Günəşli, Tel, Yaquboba, Xanoba, Səlimoba, Vələmir, Meşəli, Sahillər, Aşağıoba, Aslanoba, Seyidli, Xuray, Çaxçaxlı, Pərdiqıran) qazlaşdırılması lahiyəsinin həyata keçirilməsinə başlanılıb.

Artıq 17 yaşayış məntəqəsində qaz çəkilişi işləri başa çatdırılmış, digər 2 kənddə işlər davam edir. Hazırda rayonun 151 yaşayış məntəqəsindən 96-na təbii qaz verilir. Abonentlərin sayı 34950-yə çatmışdır ki, bu da rayon əhalisinin 91%-ni təşkil edir. Bu işlər həmin ərazilərin ekosisteminin qorunub saxlanmasına və kənd turizminin və ekoturizmin inkişafına böyük dəstək olacaq.

*Yekun olaraq onu deyə bilərəm ki, müstəqillik illərində Azərbaycan dövlətinin çox böyük uğurları olmuşdur. Bu il Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinin ölkə səviyyəsində yüksək, təntənəli surətdə keçirilməsi də bu uğurların bir növ real təcəssümü idi. Qurucusu ulu öndər Heydər Əliyev olan Azərbaycan dövlətinin gələcəyə hədəflənmiş böyük inkişaf strategiyası var. Ölkədə həyata keçirilən iqtisadi siyasət Azərbaycanın iqtisadi qüdrətinin daha da artmasına xidmət edir. Xaçmaz rayonu da bu inkişaf müstəvisində daim çiçəklənən, inkişaf edən rayonlardan biri olaraq qalacaqdır.*

**Müsahibəni apardı:**
**Mətanət Hüseynova**